# Qüdrətli ölkəmiz Azərbaycan Xalq Cümhuriyyətinin ənənələrini yaşadır

*Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir. Müstəqilliyimizin qorunması, möhkəmlənməsi ən vacib məsələlərdən biridir. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq!*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər zaman Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizin dövlətçilik tarixində mühüm yeri olduğunu bildirmişlər. Birinci Dünya müharibəsində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu və ölkənin başı üzərini yeni işğal təhlükəsinin aldığı çox mürəkkəb bir daxili və beynəlxalq şəraitdə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin əsas hissəsini ilk növbədə, Azərbaycanın müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınmasına nail olmaq, qonşu dövlətlərlə münasibətləri qaydaya salmaq təşkil edirdi. 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika olmaqla yanaşı, xalqımızın tarixində mühüm bir hadisə idi. Yüzilliklər ərzində müstəqillik arzusu ilə yaşayan xalqımız nəhayət ki, öz müstəqil dövlətinə sahib oldu. Lakin bəzi qüvvələr Azərbaycan Demokratik Cümhuriyyətinin süqutuna çalışırdılar.**

Belə ki, Cənubi Qafqaz respublikaları arasında mübahisəli məsələlərin, xüsusilə, Ermənistanın ərazi iddiası məsələsinin həlli Cümhuriyyət üçün böyük əhəmiyyət kəsb edirdi. Çətin beynəlxalq şəraitdə müstəqilliyini elan etmiş və hərbi köməyə böyük ehtiyacı olan Azərbaycan Xalq Cümhuriyyəti ilk addım kimi Türkiyə ilə müqavilə bağlamağı qərara almışdı. Belə ki, 1918-ci il iyunun 4-də Batumda Osmanlı Türkiyəsi ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsinin imzalanması Azərbaycan xalqı üçün həyati əhəmiyyətli sənəd olmaqla yanaşı, Cümhuriyyət hökumətinin imzaladığı ilk dövlətlərarası müqavilə idi. Bunun ardınca iyunun 16-da Azərbaycan hökuməti Tiflisdən Gəncəyə köçdü. Gəncədə Nuru Paşanın başçılıq etdiyi 300 nəfər məsləhətçidən ibarət türk hərbi nümayəndəliyi ilə yanaşı, Qafqaz İslam ordusunun şəxsi heyətinin təxminən yarısı yerli könüllülərdən ibarət idi.

1918-ci il iyunun 17-də Fətəli xan Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti hökuməti soyqırımı taleyini yaşamış Azərbaycan xalqını bu çətin vəziyyətdən çıxarmaq məsuliyyətini öz üzərinə götürdü. Bütün bunlarla yanaşı, Azərbaycan hökuməti öz fəaliyyətinin mühüm bir hissəsini dövlət müstəqilliyinin qorunub saxlanması, eləcə də xarici müdaxilənin qarşısının alınması üçün ordu quruculuğuna yönəltmişdi. Bu baxımdan, ordu quruculuğu istiqamətində iyunun 26-da müsəlman hərbi korpusunun Azərbaycan korpusuna çevrilməsi ilə mühüm addım atıldı və faktiki olaraq ilk milli ordu yaradıldı. Bir gün sonra Azərbaycan dili dövlət dili elan edildi. Bunun ardınca isə iyul ayının 15-də Fövqəladə Təhqiqat Komissiyası yaratmaq barədə qərar qəbul olundu və komissiya Birinci Dünya müharibəsi dövründə Cənubi Qafqaz ərazisində bütün türk-müsəlman əhalisinə qarşı erməni daşnakları tərəfindən törədilən soyqırımı cinayətlərini araşdırıb, cinayətkarları məsuliyyətə cəlb etməli idi.

Azərbaycan Cümhuriyyətinin mövcud olduğu 23 ay ərzində ölkənin daxilində ayrı-ayrı güclər tərəfindən çoxlu iğtişaşlar törədildi. Təbiidir ki, bu, hökumətin qüvvəsinin parçalanmasına, bir neçə tərəfli mübarizə aparmasına səbəb olurdu. Azərbaycanın aparıcı siyasi qüvvələri müxtəlif siyasi güclərlə əməkdaşlığa getdilər. Dəfələrlə kabinet dəyişikliyi baş verdi. Belə bir vəziyyətdə ölkədə bölünmə təhlükəsi gündən-günə artırdı. Digər tərəfdən, bolşeviklərin irəli sürdükləri ideyalar fəhlə və kəndliləri şirnikləndirirdi.

Təəssüflər olsun ki, Müsavat hökuməti gördüyü işin dəyərini, önəmini kütlələrə istənilən səviyyədə çatdıra bilmirdi. Bu, eyni zamanda, Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq iqtidarında olmamasının mühüm səbəblərdən biri kimi dəyərləndirilməlidir.

Aprelin 28-də XI qızıl ordunun Azərbaycana daxil olması ilə Xalq Cümhuriyyətinin süqut etməsi ölkəmizin beynəlxalq münasibətlər sistemində müstəqil dövlət kimi iştirakını dayandırdı. Beləliklə, bu tarixdə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradı.

Bu gün Azərbaycan sözün əsl mənasında, müstəqil, inkişaf edən, böyük gələcəyə malik olan bir ölkədir. 1993-cü ilin ikinci yarısından ümummilli lider Heydər Əliyevin xalqın təkidli xahişləri ilə yenidən hakimiyyətə qayıdışı Azərbaycanda gerçək müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Əsası ulu öndər tərəfindən qoyulmuş və bu gün Prezident cənab İlham Əliyevin uğurla həyata keçirdiyi xarici siyasət strategiyası dövlətlərarası regional və beynəlxalq əlaqələrdə daha yaxından iştirak etmək, Şərq və Qərb mədəniyyətinin bir araya gətirilməsindən yaranmış dəyərləri özündə ehtiva edərək dünya birliyinə sıx inteqrasiya olunmaq xəttini vacib etmişdir. Bu seçimi reallaşdırmaq üçün Azərbaycan dövləti bir tərəfdən dünya təcrübəsini öyrənərək özünün iqtisadi və siyasi inkişaf modelini müəyyənləşdirir, digər tərəfdən isə beynəlxalq aləmdə qəbul edilmiş prinsiplərə uyğun şəkildə öz milli maraqlarını qoruyaraq dövlətlərarası əlaqələr qurur. Hazırda regionda və dünyada baş verən əsas iqtisadi- siyasi və mədəni proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Ölkə daxilində gedən demokratik proseslər və iqtisadi yüksəlişlə yanaşı, uğurlu xarici siyasət bu gün dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətini Azərbaycana yönəltmiş və bu da beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaratmışdır. Bu gün ulu öndər Heydər Əliyevin xarici siyasət kursunu böyük uzaqgörənliklə davam etdirən dövlət başçısı cənab İlham Əliyev yüksək diplomatik məharəti sayəsində Azərbaycanın dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərini keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirmişdir.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfər Azərbaycan dövlətçiliyinin salnaməsinə qızıl hərflərlə yazılmışdır.

Artıq xalqımız, hər birimiz əminik ki, torpaqlarımız heç vaxt düşmən tapdağında qalmayacaq, müstəqilliyimiz süquta uğramayacaq. Çünki bu gün müstəqil Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyev ədaləti, ərazi bütövlüyümüzü bərpa etdi, 30 il həsrətində olduğumuz Qarabağı özümüzə - əsl sahibinə qaytardı, müstəqilliyimizi möhkəmləndirdi. Bu gün Azərbaycan strateji inkişaf istiqamətlərini əsas tutaraq bölgədə, dünyada dəyişən vəziyyətə uyğun öz inamlı siyasətini həyata keçirir. Ölkəmiz müstəqil siyasət apararaq milli maraqların təmin olunmasında mühüm addımlar atıb, çox böyük uğurlar qazanıb. 2003-cü ildən bu günə qədər Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşdirilir. Dünyada, bölgədə yeni təhlükə mənbələri üzə çıxır, yeni çağırışlar meydana gəlir. Əlbəttə, biz həmişə çalışırıq və çalışmalıyıq ki, ölkəmizi mümkün olan risklərdən qoruya bilək. Son illərin təcrübəsi onu göstərir ki, biz buna müvəffəq ola bilmişik. Hərbi qüdrətimizin artırılması nəticəsində bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqlərdə dünyanın ən güclü 50 ordusu sırasındadır. Bu gün artıq "qaçqın və köçkün" ifadəsi işlədilmir, "Dağlıq Qarabağ problemi" mövcud deyil. İşğaldan azad olunmuş torpaqlarda ilk gündən böyük quruculuq, abadlıq işləri aparılır. Bu müstəqillik, Vətən topraqlarımızın bütövlüyünün bərpası şəhid verilərək qazanılıb.

**Emin QASIMOV,**
**"Respublika".**